https://doi.org/10.59849/3006-1342.2025.2.37
UOT 372.8:355

*Müjkan Əbdüləli qızı Məmmədzadə*
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
*p.ü.f.d., dissertant*
*E-mail: mujkan@mail.ru,*

# AZƏRBAYCANDA HƏRBİ TƏHSİLİN İNKİŞAFININ TARİXİ MƏRHƏLƏLƏRİ

*Məqalədə Azərbaycanda hərbi təhsilin inkişafının tarixi mərhələləri təhlil olunmuşdur. Belə ki, qədim Azərbaycan dövlətləri olan Manna, Midiya və Atropatena dövründən başlayaraq müasir dövrə qədər hərbi təhsilin inkişafı və onun təkamülü geniş şəkildə araşdırılmışdı. Xüsusilə Sovet dövrü (1920–1991), müstəqillikdən sonrakı keçid dövrü (1991–2000) və müasir mərhələ (2000-ci illərdən bu günə qədər) ayrı-ayrılıqda pedaqoji və strateji baxımdan dəyərləndirilir.*

*Sovet dövründə Azərbaycan hərbçiləri əsasən SSRİ-nin müxtəlif şəhərlərindəki ali hərbi məktəblərdə təhsil alır, ideoloji əsaslara söykənən, mərkəzləşdirilmiş və standartlaşdırılmış tədris proqramları ilə hazırlanırdılar. Bu sistem texniki baxımdan effektiv olsa da, milli maraqların və müstəqil qərarvermə bacarıqlarının inkişafını kifayət qədər dəstəkləmirdi.*

*Müstəqillik əldə edildikdən sonra Azərbaycan yeni hərbi təhsil infrastrukturunun qurulması zərurəti ilə üzləşdi. 1990-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər hərbi tədris müəssisələrinin yaradılması milli kadr hazırlığının əsasını qoydu. Tədrisin Azərbaycan dilində təşkili və milli ruhun aşılanması bu dövrün əsas yeniliklərindən biri oldu.*

*2000-ci illərdən etibarən ali hərbi təhsildə köklü islahatlar həyata keçirildi. NATO standartlarına uyğun kurikulumların hazırlanması, simulyasiya texnologiyalarının tətbiqi, liderlik, psixoloji davamlılıq və hərbi etikaya dair fənlərin tədrisə daxil edilməsi bu mərhələnin başlıca xüsusiyyətlərindəndir. 2022-ci ildə yaradılan Milli Müdafiə Universiteti isə bu sahədə yeni keyfiyyət mərhələsini simvolizə edir.*

*Nəticə olaraq, məqalə Azərbaycanın hərbi təhsil sistemində baş vermiş mühüm dəyişikliklərin analitik və pedaqoji baxımdan qiymətləndirilməsinə yönəlmişdir. Bu yanaşma, həm tarixi irsi, həm də gələcəyə yönəlik inkişaf istiqamətlərini dəyərləndirməyə imkan verir.*

*Açar sözlər:* hərbi təhsil, Azərbaycan ordusu, ali hərbi məktəb, pedaqoji islahatlar, zabit hazırlığı, NATO standartları, müasir təlim

## *Giriş*

Azərbaycan Respublikasında milli təhlükəsizlik və müdafiə qabiliyyətinin təmin olunması ölkənin müstəqil dövlət kimi varlığını qoruması baxımından fundamental əhəmiyyət daşıyır. Bu məqsədə çatmaq üçün güclü, peşəkar və yüksək intellektual hazırlığa malik silahlı qüvvələrin formalaşdırılması strateji prioritetlərdən biri kimi müəyyən olunmuşdur. Güclü ordu isə yalnız müasir silahlarla deyil, eyni zamanda hazırlıqlı və məsuliyyətli insan resursları ilə təmin olunmalıdır. Bu kontekstdə hərbi təhsil sistemi dövlətin təhlükəsizlik infrastrukturunun mühüm sütunlarından biri hesab olunur.

Hərbi təhsil təkcə texniki və taktiki biliklərin ötürülməsi deyil, həm də ordu kadrlarının mənəvi-psixoloji, strateji və liderlik bacarıqlarının inkişafını təmin edən kompleks bir prosesdir. Bu səbəbdən hərbi təhsilin keyfiyyəti və inkişaf səviyyəsi birbaşa ölkənin müdafiə qüdrətinə təsir göstərir. Azərbaycanın hərbi təhsil sisteminin formalaşması və inkişafı isə tarix

boyu müxtəlif mərhələlərdən keçmiş, tarixi-siyasi proseslər, ideoloji çərçivələr və beynəlxalq münasibətlər fonunda daim dəyişmişdir.

Bu məqalənin məqsədi Azərbaycanda hərbi təhsil sisteminin inkişaf dinamikasını araşdırmaq, onun keçdiyi əsas mərhələləri təhlil etmək və bu mərhələlərin pedaqoji baxımdan nə kimi yeniliklər gətirdiyini ortaya qoymaqdır. Hər mərhələdə aparılan təhsil islahatlarının pedaqoji əsasları, təlim metodikaları, kurikulum məzmunu və liderlik bacarıqlarının formalaşdırılması məsələləri diqqət mərkəzində saxlanılır.

*Tədqiqatın obyekti*

Qədim Azərbaycan dövlətləri olan Manna, Midiya və Atropatena dövründə hərbi təlimlər əsasən aristokrat zümrənin oğullarının döyüş sənətinə yiyələnməsi formasında həyata keçirilmişdir. Bu dövrdə oxatma, qılıncoynatma, süvari döyüş bacarıqları və qala müdafiə taktikaları üzrə praktiki hazırlıq əsas vasitələrdən sayılmışdır. Bu strukturlaşmamış, lakin sistemli təlim formaları ilkin hərbi təhsilin əsasını qoymuşdur. Ərəb xilafəti dövründə Azərbaycanda hərbi təhsil İslam ideoloji sisteminə uyğun şəkildə təşəkkül tapmışdır. Hərbi xidmətə cəlb olunan şəxslər dini biliklərlə yanaşı döyüş strategiyası və taktikasına dair nəzəri və praktiki təcrübələr qazanmışlar. Azərbaycanlı döyüşçülər müxtəlif yürüşlərdə iştirak etməklə İslam dünyasının hərbi-mədəni sisteminə inteqrasiya olunmuş, bu da regionda döyüş təcrübəsinin və hərbi biliklərin yayılmasına səbəb olmuşdur. Səlcuq imperiyası dövründə hərbi təlim daha sistemli formaya keçmişdir. Bu mərhələdə nizami ordu strukturu formalaşdırılmış, saray məktəblərində və hərbi düşərgələrdə xüsusi təlim proqramları tətbiq olunmuşdur. Müxtəlif hərbi qruplar – oxçular, süvarilər, piyadalar – ayrı-ayrı metodlarla hazırlanır, gələcək sərkərdələr hərbi idarəetmə və strategiya sahəsində mükəmməl təhsil alırdılar [2, s .5-6].

Atabəylər dövrü (XII əsr) isə Azərbaycanda hərbi təhsilin mərkəzləşdirilmiş və dövlət siyasətinə çevrilmiş mərhələsi kimi xarakterizə olunur. Şəmsəddin Eldəniz və onun davamçıları tərəfindən yaradılan hərbi məktəblərdə gənc zabitlər hazırlanır, döyüş sənətləri, taktiki planlaşdırma və ordu quruculuğu üzrə dərslər keçirilirdi. Bu dövr hərbi idarəçiliyin sivil strukturlarla əlaqələndirildiyi bir mərhələ olmuşdur. Qızıl Orda və Teymurilər dövründə hərbi təhsil sadəcə hərbi bacarıqlarla məhdudlaşmamış, eyni zamanda dövlət idarəçiliyi, diplomatik davranış və siyasi strategiyalar da təlim proqramlarına daxil edilmişdir. Hərbi liderlər döyüş meydanında olduğu qədər siyasi sahədə də aktiv rol oynamışlar [3, s. 23-24].

Səfəvilər dövrü isə hərbi təhsilin ideoloji baza üzərində qurulmuş formasını təqdim edir. "Qızılbaş" ordusu daxilində süvari və piyada qüvvələrin peşəkar şəkildə hazırlanması, döyüş texnikasının inkişafı və hərbi nizam-intizamın gücləndirilməsi bu dövrün əsas xüsusiyyətlərindəndir. Bu mərhələdə ordu hazırlığı dini-siyasi ideologiya ilə sintez olunmuş, həm daxili sabitliyin, həm də xarici ekspansiyanın əsas alətinə çevrilmişdir [6, s. 16].

Beləliklə, Azərbaycanda hərbi təhsil sistemi qədim dövrlərdən etibarən təkamül yolu keçərək dövlətçilik ənənələri ilə sıx bağlı şəkildə inkişaf etmiş, bu prosesdə həm yerli, həm də xarici təsirlər mühüm rol oynamışdır. Bu tarixi inkişafın təhlili müasir hərbi təhsil sisteminin köklərini daha dərindən anlamağa imkan verir və elmi-pedaqoji aspektdən mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi təkcə döyüş uğurları baxımından deyil, həm də Azərbaycan korpusunun formalaşdırılması, hərbi hazırlığın həyata keçirilməsi və milli zabit kadrlarının hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

5-ci və 15-ci Osmanlı diviziyalarının iştirakı ilə Birinci Bakı hücumu (5 avqust 1918) kimi mühüm əməliyyatlarda iştirak edən Azərbaycan qoşunları tədricən nizami döyüş qüvvəsinə çevrildi. Bundan əlavə, bu fəaliyyətin maddi-texniki və struktur aspektləri də qeyd

edilməlidir: itkilərin hesablanması, kadr mübadiləsi, silah-sursatın bölgüsü, döyüş xəritələrinin təminatı, nəqliyyat sisteminin yaradılması kimi məsələlər ordunun uğurlu təşkilinin mühüm elementləri kimi reallaşdırılıb. Azərbaycan Korpusunun formalaşması prosesi təkcə ordunun yaradılması kimi deyil, həm də milli hərbi qüvvə konsepsiyasının formalaşması və praktiki həyata keçirilməsi kimi dəyərləndirilməlidir. Osmanlı İmperiyasının hərbi-strateji dəstəyi ilə formalaşan bu struktur sonradan Azərbaycan Xalq Cümhuriyyəti Silahlı Qüvvələrinin əsasına çevrildi. Bu təcrübə göstərdi ki, milli gücün inkişafı üçün xarici dəstək və daxili resursların sintezi, strategiya, müttəfiqlik, kadr hazırlığı və ideoloji baza həlledici rol oynayır.

1918-ci ilin əvvəllərində Azərbaycan korpusuna cəlb olunacaq əsgərlərin sayının artırılması və onların vaxtında qoşunlara göndərilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Martın 1-də Milli Hərbiyyə Məktəbi yaradıldı və Cahangir bəy Nəsirbəyov onun rəisi təyin edildi [8]. Bu istiqamətdə Ordu komandanlığı 1918-ci ildə Bakı, Gəncə və Qarabağ (Şuşa) bölgələrində üç batalyon depo alayının yaradılmasını tələb etdi. Bu, yeni çağırışların daha tez və operativ yerinə yetirilməsinə imkan verdi. Gəncədə kiçik zabitlərin hazırlanması üçün açılan Ehtiyatda olan Zabit Namizədləri Məktəbinə xüsusi hazırlıq keçirilirdi. Lakin məktəbə müraciət edən şagirdlərin sayının azlığı və təhsildəki ziddiyyətlər səbəbindən Nuri Paşanın əmrilə 1918-ci il oktyabrın 4-də şagirdlərin ikinci sinfə köçürülməsinə qərar verilir. Bu addım zabit hazırlığı üçün tələb olunan insan resurslarının artırılması üçün atılan strateji addım idi. 1918-ci il oktyabrın 26-da məktəbdə keçirilən yoxlamada bir sıra yüksək rütbəli hərbi və dövlət xadimləri iştirak edirdilər. Yoxlamada 1-ci Azərbaycan Korpusunun komandiri Əli Paşa, 2-ci Diviziya komandiri Nazım bəy, Nuri Paşanın əcdadı Əhməd Paşa və digər yüksək rütbəli şəxslər iştirak edirdilər [4, s. 38]. Yoxlama dövründə məktəbin fəaliyyəti və zabit hazırlığı prosesi yaxından qiymətləndirilib. 1918-ci il dekabrın 1-də Gəncə Hərbi Məktəbinin statusu dəyişdirildi və onun əsasında Praporşiklər məktəbi yaradıldı [1, s. 416]. Bu dövrdə əsas diqqət milli zabit kadrlarının hazırlanmasına, orduya qəbul prosesinin təkmilləşdirilməsinə yönəldilib. Milli ordunun rəsmiləşdirilməsi məqsədilə şəxsi heyətin və zabitlərin təminatı sistemli şəkildə gücləndirildi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet hakimiyyəti ordu quruculuğunu mərkəzləşdirilmiş qaydada aparmağa başladı. Bu dövrdə hərbi təhsil sistemi də fərqli islahatlara məruz qaldı. Azərbaycan Sovet İttifaqı dövründə hərbi təhsil sistemi ümumilikdə SSRİ-nin hərbi-siyasi doktrinası çərçivəsində mərkəzləşdirilmiş və ciddi ideoloji nəzarət altında inkişaf etmişdir [7, s. 608].

Bu dövr 1920-1991-ci illəri əhatə edir və Azərbaycan üçün həm hərbi hazırlığın strukturu, həm də ali zabit heyətinin hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir. Bu dövrə məxsus bir sıra xarakterik xüsusiyyətlər var idi. Sovet hərbi təhsili təkcə hərbi elmlərlə deyil, həm də kommunist ideologiyası və partiya təhsili ilə zənginləşirdi. Məzunların hazırlanması, proqramlar və zabitlərin təyinatları Moskva tərəfindən müəyyən edilirdi. Azərbaycan gənclərini SSRİ-nin müxtəlif hərbi məktəblərinə göndərməklə sıravi zabitlər hazırlanırdı. 1920-ci illərdə 11-ci Qızıl Ordu Bakıya daxil olduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin hərbi strukturları ləğv edildi. Sovet modelinə uyğun olaraq ordu yenidən quruldu və yerli çağırışçıların hazırlanması üçün kurslar yaradıldı. Bakı Hərbi Komissarlığının xətti ilə gənclərin sovet hərbi məktəblərinə göndərilməsi genişləndirildi.

İkinci Dünya Müharibəsi illərində Azərbaycanda qısamüddətli döyüş hazırlığı kursları təşkil olunurdu. Bakıda və Gəncədə hərbi mühəndislik və texniki hazırlıq kursları açıldı. Bu dövrdə minlərlə azərbaycanlı sovet ordusu sıralarında iştirak edib və onların çoxu zabit rütbəsi alıb. 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibədən sonra sovet ordusunun yenidən təşkili ilə Azərbaycan gəncləri SSRİ-nin tanınmış hərbi məktəblərinə (Moskva, Sankt-Peterburq, Odessa və s.) göndərilib. 1960-1970-ci illərdə Azərbaycanın hərbi

qulluqçuları SSRİ müdafiə sənayesində və qərargahında mühüm rol oynayırdılar. Sovet Hava Hücumundan Müdafiə Qüvvələrinin tərkibində Bakıda strateji döyüş bazaları yaradıldı. SSRİ-nin son illərində hərbi təhsildə ideologiyanın zəifləməsi başlandı. Azərbaycan gəncləri arasında milli birlik hissləri artmağa başladı. SSRİ-nin dağılması ərəfəsində ordu sıralarında, zabitlər arasında fikir ayrılıqları yarandı. Bu dövrdə Saratov, Minsk, Odessa, Moskva, Leninqrad Hərbi Akademiyaları – azərbaycanlıların oxuduğu əsas məktəblər idi. Bakı Ali Hərbi Dənizçilik Məktəbi - SSRİ-nin Qafqazda yeganə hərbi dəniz hazırlığı müəssisəsi 1939-cu ildə yaradılmışdı. Bakıda Müharibə Hazırlıq Məktəbləri və texniki kurslar həm ordunun, həm də müdafiə sənayesinin tələblərinə uyğun ixtisaslaşdırılmış hazırlıqlar təşkil edirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra milli hərbi kadrların hazırlanması üçün milli hərbi təhsil böyük əhəmiyyət kəsb edirdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra milli hərbi təhsil sistemi tamamilə yenidən qurulmuş və milli hərbi kadrların hazırlanması üçün strateji istiqamətə çevrilmişdir. İlk olaraq, 1992-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi (əvvəlki Sovet dövrünün Bakı Ali Birləşmiş Komandirlər Məktəbi) fəaliyyətə başlamışdır. Bu ali təhsil müəssisəsi Azərbaycan Ordusunun leytenant rütbəli zabitlərinin hazırlanması məqsədilə fəaliyyət göstərmiş, 2001-ci ildən institut statusu almış, 2004-cü ildə isə rəsmi olaraq "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi" adını almışdır. Burada kursantlar bakalavr səviyyəsində təhsil alır və təhsilini uğurla başa vuranlara "leytenant" hərbi rütbəsi verilir.

Azərbaycan Silahlı Qüvvələrinin komanda heyətinin peşəkarlaşdırılması və strateji idarəetmə qabiliyyətlərinin inkişafı üçün 1999-cu ildə "Silahlı Qüvvələrin Hərbi Akademiyası" təsis edilmişdir. Bu ali hərbi təhsil ocağı komanda-qərargah və yüksək səviyyəli qərarverici zabitlər hazırlamaq məqsədilə yaradılmış və 2 illik ixtisaslaşmış proqramlar əsasında fəaliyyət göstərmişdir.

Milli zabit heyətinin kütləvi şəkildə hazırlanması məqsədilə 2001-ci ildə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı çərçivəsində Təlim-Tədris Mərkəzi təsis olunmuşdur. Bu mərkəzdə ehtiyat zabitlər, kiçik zabit heyəti, müddətli və ixtisasartırma təlimləri təşkil olunur. NATO standartlarına uyğun proqramlarla təchiz olunan bu mərkəz, müasir döyüş taktikasına uyğun tədris texnologiyaları ilə fəaliyyət göstərir.

Orta məktəbdən sonra hərbi peşəyə yönəlmək istəyən gənclər üçün fəaliyyət göstərən əsas hərbi liseylərdən biri 1971-ci ildə yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Liseydir. Bu lisey Sovet dövründən qalan ənənəni davam etdirərək müstəqillik dövründə də zabit hazırlığı üçün baza mərhələsini təşkil etmişdir. 1998-ci ildə isə Naxçıvanda Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. Bu liseylərdə hər il yüzlərlə şagird təhsil alır və məzunların əksəriyyəti ölkə daxilində və xaricdəki hərbi təhsil müəssisələrinə qəbul olunur.

2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə Milli Müdafiə Universiteti təsis edilmişdir [5]. Bu universitet Türkiyə Respublikasının Milli Müdafiə Universiteti modelinə əsaslanaraq yaradılmış, Silahlı Qüvvələrin bütün səviyyələr üzrə hərbi təhsil müəssisələrini – hərbi akademiyalar, institutlar, liseylər və tədqiqat mərkəzlərini – bir struktur altında birləşdirmişdir. Universitetin əsas məqsədi vahid idarəetmə və tədris sisteminə keçid, hərbi təhsilin səmərəliliyinin artırılması və beynəlxalq standartlara uyğun hərbi biliklərin verilməsidir. Strukturuna Heydər Əliyev adına Hərbi İnstitut, hərbi liseylər, Hərbi Tibb Fakültəsi, elmi-tədqiqat mərkəzləri və digər qurumlar daxildir.

### *Nəticə*

Azərbaycanda hərbi təhsil sistemi zamanla inkişaf edərək müxtəlif mərhələlərdən keçmiş, siyasi və hərbi reallıqlara uyğunlaşmışdır. Sovet dövründə mərkəzləşdirilmiş və ideoloji əsaslara söykənən təhsil modeli, müstəqillik dövründə milli kadr hazırlığının

əsaslarını formalaşdırmış, müasir mərhələdə isə beynəlxalq standartlara uyğun, çevik və intellektual ordu quruculuğuna xidmət edən bir sistemə çevrilmişdir.

Ali hərbi təhsilin inkişafı yalnız hərbi biliklərin ötürülməsi ilə deyil, həm də strateji düşüncəyə, analitik qərarverməyə və liderlik bacarıqlarına əsaslanan zabit hazırlığı ilə mümkündür. Bu baxımdan, hazırda həyata keçirilən islahatların davamlı olması, müasir texnologiyaların və pedaqoji yanaşmaların tətbiqi ordu quruculuğunun gələcək uğurlarına zəmin yaradır.

Beləliklə, Azərbaycan müstəqillik əldə etdikdən sonra milli hərbi təhsil sistemi mərhələli şəkildə inkişaf etdirilərək müasir hərbi tələblərə cavab verən struktura çevrilmişdir. Bu sistem zabit və komandir heyətinin, xüsusi təyinatlı bölmələrin, həmçinin hərbi-texniki və elmi potensialın inkişafı üçün əsas baza rolunu oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı: "Lider", 2004. 440 s.
2. Əliyev N. Azərbaycanın hərb tarixi: ən qədim dövrdən XX əsrin əvvəllərinə qədər: monoqrafiya / N.A.Əliyev, S.Ə.Əhmədov, N.Əmirbəyova. Milli Müdafiə Universiteti, Hərbi-Elmi Tədqiqat İnstitutu.- Bakı: Afpoliqraf, 2024. 880 s.
3. Əliyev N. Azərbaycanın hərbi tarixi. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası. I hissə: Azərbaycanda qədim dövrdə hərbi tarixi hadisələr. Bakı, 2016. 144 s.
4. Güvenbaş M. Azerbaycan Kolordusunun millî güç unsuru olmasında Kafkas İslam Ordusunun rolü. Askeri Tarih Araştırmaları Dergisi 17, sy. 31 (Mayıs 2019): 33-64.
5. https://mod.gov.az/az/azerbaycan-ordusunun-herbi-elm-ve-tehsil-sistemi-326/
6. Məmmədzadə M. Azərbaycanda ali hərbi təhsilin inkişafının tarixi-pedaqoji tədqiqi. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, 2025. Cild: 5 Sayı: 3, s. 15-20.
7. Süleymanov M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi: II cild. Firuzan, 2014. 694 s.
8. Süleymanov M. Azərbaycanda hərbi təhsilin əsası 101 il əvvəl qoyulub. Azərbaycan ordusu. 16 oktyabr 2019. № 80.


УДК 372.8:355

*Мужкан Абдулали кызы Мамедзаде*
*Военно-Научный Исследовательский Институт при*
*Национальном Университете Обороны Азербайджана*

## ИСТОРИЧЕСКИЕ ЭТАПЫ РАЗВИТИЯ ВОЕННОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ
*РЕЗЮМЕ*

*Ключевые слова:* военное образование, азербайджанская армия, высшая военная школа, педагогические реформы, подготовка офицеров, стандарты НАТО, современная подготовка

В статье анализируются исторические этапы развития системы военного образования в Азербайджане. Подробно исследуется эволюция и становление военного образования — начиная с периода древних азербайджанских государств, таких как Манна, Мидия и Атропатена, и вплоть до современности. Особое внимание уделяется советскому периоду (1920–1991), переходному этапу после обретения независимости

(1991–2000) и современному этапу (с 2000-х годов до настоящего времени), каждый из которых рассматривается отдельно с педагогической и стратегической точек зрения.

В советский период азербайджанские военнослужащие в основном обучались в высших военных учебных заведениях, расположенных в различных городах бывшего СССР. Образовательный процесс был централизованным, идеологически ориентированным и стандартизированным. Несмотря на техническую эффективность, данная система в недостаточной мере способствовала развитию национальных интересов и формированию навыков самостоятельного принятия решений.

После восстановления независимости Азербайджан столкнулся с необходимостью создания новой национальной системы военного образования. В 1990-х годах были основаны такие учебные заведения, как Высшее военное училище имени Гейдара Алиева и другие военные образовательные центры, что положило начало подготовке национальных офицерских кадров. Среди главных нововведений этого периода — организация обучения на азербайджанском языке и внедрение в образовательный процесс патриотических и национальных ценностей.

С начала 2000-х годов в сфере высшего военного образования были реализованы глубокие реформы. Ключевыми характеристиками данного этапа стали разработка учебных программ, соответствующих стандартам НАТО, внедрение технологий симуляции, а также включение в учебный процесс дисциплин по лидерству, психологической устойчивости и военной этике. Основание Национального университета обороны в 2022 году стало символом нового качественного этапа в развитии военного образования в Азербайджане.

Таким образом, статья направлена на аналитическую и педагогическую оценку ключевых преобразований в системе военного образования Азербайджана. Такой подход позволяет рассматривать не только историческое наследие, но и перспективы дальнейшего стратегического развития в данной сфере.

UDC 372.8:355

*Mujkan Abdulali Mamadzada*
*Military Scientific Research Institute of the National Defense University*

## HISTORICAL STAGES OF THE DEVELOPMENT OF MILITARY EDUCATION IN AZERBAIJAN

*SUMMARY*

*Key words:* military education, Azerbaijani Armed Forces, higher military school, pedagogical reforms, officer training, NATO standards, modern training

The article analyzes the historical stages of the development of military education in Azerbaijan. It comprehensively explores the evolution and advancement of military education from the era of ancient Azerbaijani states such as Manna, Media, and Atropatene to the modern period. Particular attention is given to the Soviet era (1920–1991), the post-independence transition phase (1991–2000), and the contemporary stage (from the 2000s to the present), each evaluated separately from pedagogical and strategic perspectives.

During the Soviet period, Azerbaijani military personnel were primarily educated in various higher military institutions located across the USSR. These institutions followed a centralized, ideologically-driven, and standardized curriculum. While technically effective,

this system did not sufficiently support the development of national interests or independent decision-making skills.

After gaining independence, Azerbaijan faced the urgent need to establish a new national military education infrastructure. The foundation for professional national military training was laid in the 1990s with the establishment of institutions such as the Azerbaijan Higher Military School named after Heydar Aliyev and other military educational centers. One of the main innovations of this period was the organization of instruction in the Azerbaijani language and the promotion of national identity and patriotism within the educational process.

Since the early 2000s, fundamental reforms have been implemented in the field of higher military education. Key features of this stage include the development of curricula aligned with NATO standards, the integration of simulation-based technologies, and the inclusion of subjects such as leadership, psychological resilience and military ethics. The establishment of the National Defense University in 2022 symbolizes a new qualitative phase in the modernization of Azerbaijan's military education system. In conclusion, this article provides an analytical and pedagogical assessment of the significant transformations that have occurred within Azerbaijan's military education system. This approach makes it possible to evaluate not only the historical legacy but also the future-oriented development trajectories of military education in the country.

***Daxil oldu: 02.07.2025-ci il***